## ETİBAR TALIBLI – 50

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində ədəbiyyatşünaslığa yeni düşüncə tərzinə, tədqiqat üslubuna, iti qələmə malik olan gənclər gəldi. Bu dəyişikliyin səbəbi, yəqin ki, həmin dövrdə milli özünüdərkin, müstəqillik uğrunda xalq hərəkatının vüsət alması, ictimai-iqtisadi quruluşların əvəzlənməsi oldu. 50 yaşını qeyd etdiyimiz filologiya elmləri namizədi, dosent, folklorşünas Etibar Talıblı da həmin gənc araşdırıcıların sırasında idi.

O öz elmi fəaliyyətinə müasir Azərbaycan ədəbiyyatı sahəsindəki tədqiqatları ilə başlamışdı. Namizədlik dissertasiyası Hüseyn Cavid yaradıcılığı ilə bağlı idi. Məlumdur ki, Cavid əfəndi ədəbiyyatımızda romantizmin görkəmli nümayəndəsi olmaqla yanaşı, həm də mənəvi azadlıq, türkçülük ideyalarının carçısı kimi tanınmışdı. E.Talıblı o illərdə Səməd Vurğun, Bəxtiyar Vahabzadə kimi sənətkarların da irsinə müraciət etmişdi. Həmin şairlərin yaradıcılığına əqidə möhkəmliyi, dərin xəlqilik, şifahi ədəbiyyata bağlılıq keyfiyyətləri xasdır. Görünür, bu qələm təcrübələri gənc alimin folklorşünaslığa keçidi üçün bir hazırlıq mərhələsi idi.

1989-cu ildə BDU-da folklor kafedrası açıldı. 1990-cı ildən Etibar Talıblı bu kafedranın müəllimi kimi çalışır. Məhsuldar elmi-pedaqoji fəaliyyəti dövründə E.Talıblı həm tələbələrin, həm də professor-müəllim heyətinin hörmətini qazanmışdır. Folklorumuzun müxtəlif aktual problemlərinə həsr olunmuş məqalələrindən bəzilərinin adlarını çəkmək kifayətdir ki, onun tədqiqatlarında mövzu dairəsinin nə qədər geniş olduğunu sübut edək. Məsələn: "Şəki lətifələrində gülüş" (Azərbaycan filologiyası məsələləri. Bakı, Azərnəşr 1995), "Ayrım lətifələrində qəhrəman tipləri" (Filoloji araşdırmalar, Bakı, Azərnəşr, 1996), "Andların bədii funksiyaları" (Filoloji araşdırmalar, II k., Bakı, Azərnəşr, 1996), "Andların quruluşca bir tipi haqqında" (Filoloji araşdırmalar, II k., Bakı, Azərnəşr, 1996), "Andların təsnifi probleminin qoyuluşuna dair" (Filoloji araşdırmalar, III k., Bakı, Azərnəşr, 1996), "Azərbaycan qəhrəmanlıq eposu" ("Dil və ədəbiyyat" jurnalı, Bakı, 1997, № 16), "Şəki lətifələrinin qaynaqları və təşəkkülü haqqında" (Folklorşünaslıq məsələləri, IV

b., Bakı, BDU-nun nəşri,1999), "Folklorun kiçik janrlarında magik düşüncə" (Folklorşünaslıq məsələləri, V b., Bakı, BDU-nun nəşri, 2002), "Folklorşünaslıq elminin təşəkkülü haqqında" (Folklorşünaslıq məsələləri, VI b., Bakı, "Nurlan", 2007).

E.Talıblı bakalavr və magistr təhsil pillələri üçün bir neçə proqramın müəllifidir. O həmçinin Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının eksperti kimi test bankının təşkilində, abituriyentlər üçün yardımçı vəsaitlərin tərtibində də fəal iştirak edir.

E.Talıblı müxtəlif illərdə Fakültə Elmi Şurasının üzvü kimi Filologiya fakültəsinin bir çox problemlərinin həlli, tədrisin keyfiyyətinin artması, nizam-intizamın yüksəlməsi, dərslik və metodik göstərişlərin çapı və s. məsələlərlə bağlı öz dəyərli məsləhətləri ilə çıxış etmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasında müzakirə olunan namizədlik və doktorluq dissertasiyaları ilə bağlı E.Talıblının fikrinə, mövqeyinə, müəyyən qüsurlara dair irad və təkliflərinə hər zaman diqqətlə yanaşılır. Çünki onun qeydləri öz obyektivliyi və kompetentliyi ilə seçilir.

Etibar müəllim televiziya və radio verilişlərinə tez-tez dəvət olunur, folklorumuzun bir çox problemləri ilə əlaqədar öz mütəxəssis sözünü deyir. Bu, mənəviyyatımızın, adət-ənənələrimizin saxlancı olan ağız ədəbiyyatımızın təbliğinin, gənc nəslə çatdırılmasının daha bir yoludur.

E.Talıblı elə bir yaşdadır ki, topladığı təcrübə ona daha çox yazmaq, daha məhsuldar işləmək, sözünü daha cəsarətlə demək hüququ verir. Elmi ictimaiyyətimiz ondan yeni kitablar, monoqrafiyalar gözləyir. Yarım əsrlik yubileyini qeyd edən həmkarımıza cansağlığı, uzun ömür arzulayır, uğurlarının davamını diləyirik.